

## Adil AĞA

### Xəbər göndər mənə

*(Zal oğluna 47 ildən sonra bir mənzuma)*

Ey Əlim, ey İrzam! Görüşçün bir xəbər göndər mənə,
Tənhayam, ara olayları bir təhər göndər mənə.

Rahatlığımı istəsən, görünməzdən öncə, Xələflim,
Bir şirin söz, acı söz, giley-güzar göndər mənə.

Qəm yükün azmış ki, bir də yığ cahanın dərdini,
Hər dəfə göndərdiyindən çox qədər göndər mənə.

Sübut göstər ki, biz varıq, yetmişikinclər var,
Vaqif, Sənan, İdris, Həqi yox, dərd sər göndər mənə.

Yaşadığımız 4 ilin hər anı, hər günü əziz,
Olub-keçəni, gileyi bir yerə sər göndər mənə.

Bilirəm, çapdan çıxan kitabın say-hesabı yox,
İşıq üzü görənlərdən yeni nübar göndər mənə.

"Kredo" nun yeni sayın anosunu oxudum,
Çıxan kimi, isticə bir sübh səhər göndər mənə.

Həsrət dolu illər qaldı arxada, inşallah, şükür!
Cəbrayıla köç edərkən bir kəhər göndər mənə.

Ana dünyadan "vay" deyib köçdü, görmədi bu günü,
Acıları qat bir-birinə, qəhər göndər mənə.

Nəfsin çəkən hərnə olsa, çox qəm etmə, üzülmə,
Yığ, cəm eylə, ver ayqıra, dördnal çapar göndər mənə

Ağa səndən inciməz, hərnə gəlsə, qəbulumdur,
Yüz yaşa, yazdıqlarından təzə bəhər göndər mənə

01.07.2025

### Zülmətin ömrü sübhəcəndir

*(Lirik etüd)*

*Əli Rza Xələfli, təyyarənin trapında dayanan şəklini görəndə yazdım, "Cəbrayılın şəhər günündə"*

Hilal bədirrəşər, zülmət üzülər,
ulduzlar qaçar, gizlənpaç oynar,
zil qaranlıq ixtiyarlaşar, tükənər...
Səhər bəyazlaşar süd renginə,
badyadan dağılar, ətrafa yayılar,
kainat işıq selində boğular...
Həyat eşqli günəş doğar,
hər yanda bəşər nəfəsi
ağ duman kimi görünər,
könüllərdə niskil, həsrət yox olar,
qəlblərdə istək-diləklər
qanadlanar, uçar...
Ağ göyərçinlər aydın səmada
şövq ilə pərvazlanar,
Yer üzü, göy üzü dincələr, rahatlanar
yeni istək, yeni arzu doğular...
Bəşər ürəkdən bir ağızdan deyər:
- Yaxşı yol !
Qədəmləri sayalı
pakniyyətli insanların,
torpağa nəfəs verən
həsrətli insanların...

*04.10.2024, saat 16:40*

### Qəzəl

*(İstedadlı publisist, şair-yazıçı Əli Rza Xələfliyə)*

Məhv oldu obalarım bir diyarım qalmadı,
Toxum səpdim, əkin əkdim, ilk nübarım qalmadı.

Ocağım kösüvləndi, tüstüsü ərşə qalxdı,
Qaldı üç ayaqla daş, közü, narım qalmadı.

Qaçqın-köçkün əzabın gördüm solğun dünyanın,
Payız qışa yaxınkən, növbaharım qalmadı.

Torpaq mənə oğul dedi, tər axıtdım gecə-gündüz,
Bağ-bostanın düşdü qara, bəhri barım qalmadı.

Qəm, kədər boğdu içim, bir şikəstə istədim,
Kamanım yoxa çıxdı, dəfim, tarım qalmadı.

"Ağlamayan anlamaz" dedi, Zal oğlu Xələflim,
Ağladıqca içimdə dərdi sərim qalmadı.

Çalxalandıqca cahan, savaşdım içdə zəhrlə,
Yandı, kül oldu Ağa, nəfsi qübarım qalmadı.

21.08.2024

### Qəzəl

Sərt qış ötüşdü də, ilk yazım çovğuna düşdü,
Əğyarım sevindi də, dərd bəlam ona düşdü.

Söndü ömür çırağım, ruzigar heç bilinmədi,
Şükürlər Yaradana, güzarım xəzana düşdü.

Allah eşqinə çiçək, güllər xoş ovqat saçar,
Ömrü çox olmsa da, yaddaş şahana düşdü.

Sevgisiz yaşamadım, bəzən küsdülər məndən,
Çoxu vəfa qılmadı, bəxtimə birdana düşdü.

Ürəksiz dostlar, rəqib tək səf-səfə düzüldü,
Hədəfləri puç oldu, nəfsləri güldana düşdü.

Sevgi ömrüm budaqlandı, yaşıllaşdı hər yanda,
Acıları yaşa-yaşa, şirinim piranə düşdü.

Çox güman etdim qərəz, baxçada çiçəklər açar,
Heç bilmədən ad bir yana, il başqa yana düşdü.

*27.06.2025*

### ...Heç

Eşqsiz, sevgisiz yaşamadım,
bir günüm ötmədi heç,
Səni anlamayanı özün seç,
kəlmə kəsmədən gözüyumlu keç...
Doğulan al günəsi,
açılan hər səhəri,
Hər gecə nur saçan Ayı,
par-par parıldayan ulduzları,
Üz-üzə, nəfəs-nəfəsə dayanmağı,
ürkək baxışları unutmadım heç.
Kimsə o illərə aparsa məni,
yaşatsa o canlı, şirin xatirələri,
Sonucda deyərəm:
"nakam qalmadım heç!.."

*06.07.2022*

### Qayıdar külək...

Dünən eşqimizi bükdün kəfənə,
Göndərmək istədin uzaq səfərə,
Dedim etmə, əl saxla, qıyma saf əhdimizə,
Yalvardım neçə dəfə, yalvardım sənə:
Aparma məzara, qayıtmaz yerə...
Ver eşqimizi yelə, aparsın lap uzaqlara,
qalan ümidimüzü qırma sən belə,
qatma yağışlara, gələn sellərə...

Bir gün əminliklə qayıdar külək,
Sən yox, mən yox, hökm verər fələk.
Ulduzlar barışar, dövran gülər üzümüzə,
payız gələr, əsər küləklər,
qaytarar eşqimizi, qaytarar özümüzə...

*03.10.2022*

### Sən gözəlsən

*(Qrupumuzun qızlarına - hər birinə)*

Sən gözəlsən
məsum gözlərinlə...
Ümidsizlərə dayaq,
qəlbləri qübarlı,
niskilli ürəklərə
ümid verməklə gözəlsən...
Həlimlik yayan sözlərinlə,
Yıxılıb yerdə qalan
tərpənməzlərə güc-qüvvət,
təpər verən dizlərinlə gözəlsən...
Arxada dağ kimi
güvənli dayanan
dəyərli bizlərinlə
gözəlsən, gözəlim,
bəşərsən gözəlim...

*30.10.2024*

### Qurtuluş günü

*"Heç olmaz ki, doğru söz yerdə qalsın"*
**Həsən bəy Zərdabi**

Gözündən doğranıldı doğru...
asıldı insaf, mürvət,
zəiflər, əlsiz ayaqsızlar
əzildi zorların əlində,
Tapdanıldl haqq, həqiqət,
asıldı ədalət...
Bax, onda gözüm qapanmadı,
səmtini dəyişmədi,
doğrunu tutdu,
sinəm öndə oldu,
qanım tökülməyə hazır durdu,
Doğrunun gözü qurtuldu,
əlimdən bu gəldi,
daha heçnə gəlmədi...

*15.07.2025*

### Eşqin tükənməsin

*(Şairə - publisist Nəcibə İlkinin doğum gününə esse-etüd)*

Yorğun mavi gözlərin
yenə yol çəkir,
İçində min istək,
min dilək əkir.
Nələr çəkdiyini heç ürək bilmir...
Arayıb tapırsan sirdaşlarını,
dağda, aranda bitən yaz çiçəyi kimi,
Hər kəsə, hamıya qucaq açırsan
yenicə qönçələnən gül dodaq kimi,
Toy bayram olur görüşlərin də
Min ovqat bəxş edir öpüşlərin də.
Gülənnən gülürsən,
ağlayannan yaşarıb gözlərin.
Ürəkləri ovundurub,
məlhəm olub sözlərin...
... "Azad qələm" lə bir cığır açdın,
Neçə-neçə səddi hünərlə aşdın.
Ümüdsüzlərə şans verib
qəlblərdə sönməz çıraq yandırdın.
Xoş arzu, yeni istək qığılcımı,
bəxş etdin qırılmış ürəklərə,
Səsin sorağın çatdı lap uzaqlara...
Könülaçan yazılarınla,
xoşmüjdəli xəbərlərlə
güc-qüvvət verdin əsgərlərə -
səngər sakinlərinə,
ölüm-itimli savaşlarda
döyüşən oğullara.
Gah maarif ziyası saçdın
gənc oğlan qızalara,
Gah da əyləncəli anlar yaşatdın bizlərə...

Sınıq bir könülə məlhəm olmaqçün,
Niskilli qəlbləri ovundurmaqçün,
Yanıqlı anlara sərinlik verməkçün,
"Ata, ata !" deyən şəhid balasının
göz yaşlarının axmamasıçün,
sürüşən haqqı yerinə qoymaqçün,
Gecə də, gündüz də sən uyumadın,
Nələr çəkdiyini bir özün bildin,
bir də Allahın...
Qəvi düşmənə min bir lənətlə,
coşub-daşan sonsuz nifrətlə,
Səngər çəkib vuruşdun qələmlə...
İndi doğum günündür,
Ad günün mübarək !
Odlar diyarının o tayından,
bu tayınadək,
Türkiyədən, Dağıstandan,
Orta Asiyadan... Turan elindən
bir sirdaş bacı, ana, dost kimi
qucaq-qucaq salamlarla,
Haqqın duası ilə təbrik edirlər səni -
Bir istək, bir arzu gəlir ürəkdən:
nəcib, incə, kövrək qəlbindən
eşqin tükənməsin,
qələmin iti olsun, sözün şimşək,
mürəkkəbi qurumasın yazan qələmin,
Daim xoş xəbərin eşidilsin...
Sağ-salamat yaşa dünyada canım,
sədaqətli dost,
sayqılı, xeyirxah bəşər,
nəcib xanımların xanımı,
Nəcibə xanım !...
Mənim gözəl bacım.

*22 iyul 2025*